# Azərbaycan mədəniyyəti dünya meridianlarında

**Mərhum həmkarımız Mehdi Mükərrəmoğlunun redaksiyada qələmə aldığı, amma amansız xəstəliyin ucbatından çapa verə bilmədiyi ən sonuncu yazısını oxuculara təqdim edirik:**

Hazırda dünyanın nüfuzlu beynəlxalq təşkilatları, eləcə də ayrı-ayrı ölkələr Azərbaycan mədəniyyəti və incəsənəti ilə daha yaxından maraqlanırlar. Beynəlxalq festivallarda, konfrans və seminarlarda incəsənət nümunələrimiz nümayiş olunur, mötəbər tədbirlərdə incəsənət xadimlərimiz iştirak edərək, ölkəmizin mədəni nailiyyətlərini dünyaya tanıdırlar. ABŞ, Kanada, Rusiya, Fransa, Avstriya, Almaniya, Çin, Yaponiya, Misir, Qətər, İtaliya, İspaniya, Cənubi Koreya, Polşa, Belçika, İngiltərə, Ukrayna, Türkiyə, İsveç, Belarus, Qazaxstan, Özbəkistan, Yunanıstan, Bolqarıstan, Finlandiya, İsveçrə və digər ölkələrdə keçirilən Azərbaycan mədəniyyəti günləri son illər davamlı xarakter almışdır.

Ölkəmizdə keçirilən beynəlxalq mədəniyyət tədbirləri də bu əlaqələrin genişlənməsinə öz müsbət təsirini göstərir. Beynəlxalq musiqi, teatr, kino festivallarına və müsabiqələrə dünyanın məşhur incəsənət xadimləri cəlb edilir. Onların sırasında "Ü.Hacıbəyli Beynəlxalq Musiqi Festivalı", "D.Şostakoviç Festivalı", "Q.Qarayev Müasir Musiqi Festivalı", "Beynəlxalq Rostropoviç Festivalı", "Karvan Beynəlxalq Musiqi Festivalı", "Bakı Beynəlxalq Caz Festivalı", "Qəbələ Beynəlxalq Musiqi Festivalı", "Vokalçıların Bülbül Musiqi Müsabiqəsi", "Karvan Beynəlxalq musiqi layihəsi", "Beynəlxalq Teatr Konfransı", "Beynəlxalq Teatr Festivalının İpək yolu mərhələsi", "Muğam aləmi" Muğam Festivalı və başqa incəsənət tədbirlərini göstərmək olar. Bütün bu tədbirlər mədəniyyətlər arasında dialoqun genişlənməsində mühüm rol oynamışdır.

Qeyd edək ki, bu tədbirlərdə təkcə mədəniyyətimiz təbliğ olunmur, Qarabağ münaqişəsi ilə bağlı problemlər barədə də ətraflı bilgilər verilir.

Mədəniyyət sahəsində əsas prioriteti maddi və qeyri-maddi irsin qorunması təşkil edir. Bu, ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal edilib viran qoyulmuş Azərbaycan üçün xüsusi önəm daşıyan məsələdir. Ölkəmizin maddi və mənəvi irs nümunələrinin qorunması, onların dünyada öz adı və ünvanı ilə təqdim olunması istiqamətində məqsədyönlü işlər aparır. Məhz bu uğurlu siyasətin sayəsində Azərbaycanın bir sıra maddi-mənəvi sərvəti artıq UNESCO-nun Maddi Mədəni İrs Siyahısına daxil edilmişdir.



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva milli mədəniyyətimizin dünya mədəniyyətinə inteqrasiyası, beynəlxalq aləmdə tanıdılması yönümündə yorulmaz səylər göstərir. Bu gün Heydər Əliyev Fondu beynəlxalq səviyyədə mədəniyyətlər arasında dialoqda yaxından iştirak edir, mədəni əməkdaşlığın genişlənməsi məqsədilə bir sıra proqramların təşəbbüskarı və təşkilatçısı rolunda çıxış edir. Fondun himayəsi altında həm Azərbaycanda, həm də ölkədən kənarda bir sıra beynəlxalq forumların keçirilməsi bunun bariz nümunəsidir.

Son vaxtlar Azərbaycan mədəni əlaqələrin genişlənməsi istiqamətində daha ciddi addımlar atır. Bu uğurların nəticəsi kimi, ölkəmiz artıq dünyanın ən nüfuzlu beynəlxalq mədəni tədbirlərinə xüsusi dəvətlər alır. Faktiki olaraq, beynəlxalq miqyasda təşkil olunan rəsm sərgiləri, folklor festivalları, klassik və müasir musiqi festivalları, kitab sərgiləri, elmi-praktik konfranslar və s. tədbirlərdə Azərbaycan dünya birliyinin ayrılmaz bir parçası kimi təmsil olunur. Hər il İtaliya, Almaniya, Rusiya və Fransada keçirilən beynəlxalq vokal ifaçılarının festivalında Azərbaycanın təmsil olunması və burada gənc istedadlarımızın seçilməsi isə xalqımızın kübarlığının böyük bir nişanəsidir. Belə bir qiymət Şərq dövlətləri və xalqları arasında xüsusi müstəsnalıq təşkil edir.

**Mehdi MÜKƏRRƏMOĞLU,**

**"Xalq qəzeti"**

Xalq qəzeti .- 2023.- 13 yanvar.- S.7.